**AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ**

**Q Ə R A R**

**№**031/282

**Bakı şəhəri** “06” iyul **2023-cü il**

**Azərbaycan Respublikası ərazisinin başqa ölkələrdən keçə biləcək yoluxucu heyvan xəstəliklərindən qorunması ilə bağlı tədbirlər haqqında**

Ümumdünya Heyvan Sağlamlığı Təşkilatının (ÜHST) 2023-cü il 28 iyun – 5 iyul tarixli rəsmi məlumatlarına əsasən, İsrail Dövlətinin Mərkəz (HaMerkaz) dairəsində nodulyar dermatit, Polşa Respublikasının Malopolsk (Malopolskie) inzibati ərazisində, İsveç Krallığının Qotland (Gotland) əyalətində və Toqo Respublikasının Maritaym (Maritime) vilayətində isə yüksək patogen quş qripi (YPQQ) xəstəliyi qeydə alınmışdır.

Bununla əlaqədar, respublika ərazisinin qeyd olunan yoluxucu xəstəliklərdən qorunması üçün Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi (bundan sonra – Agentlik) tərəfindən zəruri tədbirlərin görülməsi məqsədilə, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 noyabr tarixli 1681 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi haqqında Əsasnamə”nin 3.0.33-3-cü yarımbəndinə uyğun olaraq

**Qərara alıram:**

**1.** ÜHST-nin İsrail Dövlətinin Mərkəz dairəsində nodulyar dermatit, Polşa Respublikasının Malopolsk inzibati ərazisində, İsveç Krallığının Qotland əyalətində və Toqo Respublikasının Maritaym vilayətində YPQQ xəstəliyinin qeydə alınması barədə məlumatları nəzərə alınsın.

**2.** İsrail Dövlətinin Mərkəz dairəsində, zonalaşma prinsipi nəzərə alınmaqla xəstəlik baş vermiş təsərrüfatdan 50 km radiusdan bütün növ diri iribuynuzlu heyvanların və onlara aid genetik materialların idxalına ÜHST-nin “Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləsi”nin 11.9-cu Fəslinə uyğun olaraq müvəqqəti məhdudiyyət tətbiq olunsun.

**3.** Polşa Respublikasının Malopolsk inzibati ərazisində, İsveç Krallığının Qotland əyalətində və Toqo Respublikasının Maritaym vilayətində, zonalaşma prinsipi nəzərə alınmaqla xəstəlik baş vermiş ərazi vahidinə daxil olan təsərrüfatdan 10 km radiusda olan məsafədə yerləşən müəssisələrdən diri quş və inkubasiya yumurtalarının, quş ətinin, tərkibində quş emalı məhsulları olan quş ətindən və bütün növ quşçuluq məhsulundan alınan hazır ət məhsullarının (quş qripi viruslarının məhv edilməsini təmin edən termik emala məruz qalan mallar istisna olmaqla), quş yemləri və quş üçün yem əlavələrinin (bitki mənşəli, kimyəvi və mikrobioloji sintez yolu ilə alınmış yemlər və yem əlavələri istisna olmaqla), quşların saxlanması, kəsilməsi və emalı üçün istifadə olunmuş avadanlıqların idxalına ÜHST-nin “Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləsi”nin 10.4-cü Fəslinə uyğun olaraq müvəqqəti məhdudiyyət tətbiq olunsun.

**4.** Epizootik risk amillərinin mövcudluğu nəzərə alınaraq, İsrail Dövlətinin Mərkəz dairəsinin, Polşa Respublikasının Malopolsk inzibati ərazisinin, İsveç Krallığının Qotland əyalətinin və Toqo Respublikasının Maritaym vilayətinin sağlam ərazilərindən və ölkəmizə idxal

edilən adıçəkilən məhsullar yüksək risk qrupuna aid edilsin və daxil olan yükün hər partiyası laboratoriya müayinəsinə cəlb olunsun.

**5.** Xəstəliyin aşkarlandığı tarixə kimi qeyd olunan ərazilərdən ixracatçı ölkənin səlahiyyətli qurumunun nəzarəti altında ölkəmizə daşınmaq üçün yüklənmiş müvafiq məhsulların idxalı laboratoriya müayinəsinə cəlb olunmaqla həyata keçirilsin.

**6.** Bu qərarın 2-ci və 3-cü bəndlərinin icrasının təmin edilməsi üçün, habelə İsrail Dövlətinin Mərkəz dairəsindən, Polşa Respublikasının Malopolsk inzibati ərazisindən, İsveç Krallığının Qotland əyalətindən və Toqo Respublikasının Maritaym vilayətindən gələn, eyni zamanda bu inzibati ərazi vahidlərindən tranzitlə keçib respublikamıza daxil olan nəqliyyat vasitələrinin gömrük-sərhəd buraxılış məntəqələrində dezinfeksiya edilməsi ilə bağlı Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə müraciət ünvanlansın.

**7.** Agentlik Aparatının İnformasiya təminatı və innovativ həllər şöbəsi bu qərar barədə məlumatın Agentliyin internet səhifəsində yerləşdirilməsini təmin etsin.

**8.** Bu qərarın Agentliyin struktur bölmələrinə, Naxçıvan Muxtar Respublikasının Dövlət Baytarlıq Xidmətinə və aidiyyəti dövlət orqanlarına göndərilməsi təmin edilsin.

**9.** Agentlik Aparatının İdxal və ixraca nəzarət şöbəsi qeyd olunan məhsulların ölkəmizə idxalını həyata keçirən hüquqi və fiziki şəxslərin bu qərarla bağlı məlumatlandırılmasını təmin etsin.

Baş Dövlət Baytarlıq Müfəttişi
Chief Veterinary Officer

**Heyvan sağlamlığı şöbəsinin müdiri,**
**Respublikanın baş dövlət baytarlıq müfəttişi** **Qalib Əbdüləliyev**